F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Yubilyar kitablar - 2026

# Zamanla Dəyər Qazanan Kitablar

2026 - cı ilin yubilyar kitabları ilə bağlı kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

Bakı – 2026

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Zamanla Dəyər Qazanan Kitablar** – 2026 - cı ilin yubilyar kitabları ilə bağlı kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / tərt.ed. N.Məcidova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. - 21s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

# Giriş

Kitablar zamanın yaddaşı, millətin ruhu və gələcəyə ünvanlanan mənəvi körpüdür. Hər bir yubilyar əsər isə təkcə keçmişin xatirəsi deyil, həm də bu günümüzü və sabahımızı formalaşdıran dəyərlərin daşıyıcısıdır. “Yubilyar kitablar – 2026” adlı bu metodik vəsait, müxtəlif illərdə nəşr olunmuş və 2026-cı ildə yubileyi qeyd edilən əsərlərin təbliği, öyrənilməsi və oxuculara daha sistemli şəkildə çatdırılması məqsədilə hazırlanmışdır. Bu vəsait kitabxanaçılar, müəllimlər, tələbələr və ümumilikdə mütaliəyə maraq göstərən hər kəs üçün praktik bələdçi rolunu oynayacaqdır. Burada təqdim olunan materiallar vasitəsilə yubilyar əsərlərin müəllifləri, kitabları onun mövzuları, ideya istiqamətləri və cəmiyyət üçün əhəmiyyəti haqqında geniş məlumat əldə etmək mümkündür. Eyni zamanda, vəsaitdə müxtəlif tədbir formaları, müzakirə sualları, sərgi və təqdimat nümunələri də yer alır ki, bu da kitabların daha yaradıcı və təsirli şəkildə təqdim olunmasına şərait yaradır. *“Yubilyar kitablar – 2026”* vəsaiti istifadəçilər üçün yalnız məlumat toplusu deyil, həm də praktik fəaliyyət üçün metodik istiqamətverici rolunu oynayan bir mənbədir. Vəsaitdə kitabxanalarda, məktəblərdə və digər mədəniyyət müəssisələrində yubilyar əsərlərlə bağlı keçirilə biləcək tədbirlərin – kitab sərgilərinin, ədəbi-bədii gecələrin, müzakirələrin, oxu saatlarının və təqdimatların təşkili ilə bağlı tövsiyələr yer alır. Bu tövsiyələr oxucuların kitaba marağını artırmaq, onların mütaliə vərdişlərini inkişaf etdirmək və ədəbi-estetik zövqünü formalaşdırmaq məqsədi daşıyır. “Yubilyar kitablar – 2026” vəsaiti oxucunu yalnız məlumatlandırmaqla kifayətlənmir, həm də onu düşünməyə, müqayisə aparmağa və mütaliə mədəniyyətini inkişaf etdirməyə təşviq edir. Bu nəşr vasitəsilə klassik və müasir ədəbiyyat nümunələrinin dəyəri bir daha ön plana çəkilir, milli və ümumbəşəri ideyaların vəhdəti nümayiş olunur. Ümid edirik ki, bu metodik vəsaitdən istifadə oxucuların kitab dünyasına marağını daha da artıracaq, yubilyar əsərlərin yenidən kəşfinə və onların geniş oxucu auditoriyasına çatdırılmasına töhfə verəcəkdir. Vəsaitin hazırlanması zamanı klassik və müasir ədəbiyyat nümunələrinin balanslı şəkildə təqdim olunmasına xüsusi diqqət yetirilmiş, F.Köçərli adına Respublika Uşaq kitabxanasının profilinə uyğun uşaq ədəbiyyatına daha çox önəm verilmişdir. Bu yanaşma oxuculara ədəbiyyatın inkişaf mərhələlərini izləmək, müxtəlif dövrlərin bədii xüsusiyyətlərini müqayisə etmək və ədəbi prosesin dinamikasını anlamaq imkanı yaradır. Həmçinin, bu vəsait vasitəsilə oxucuların müstəqil mütaliə bacarıqlarının inkişaf etdirilməsi, onların kitab seçimi zamanı daha şüurlu yanaşma sərgiləməsi təşviq olunur. Nəticə etibarilə, *“Yubilyar kitablar – 2026”* metodik vəsaiti yalnız bir məlumat mənbəyi deyil, həm də ədəbiyyata sevgi aşılayan, oxucunu düşünməyə sövq edən və kitab mədəniyyətinin inkişafına xidmət edən dəyərli bir nəşrdir. Ümid edirik ki, bu vəsait kitabxana işçilərinin, müəllimlərin və bütün kitabsevərlərin gündəlik fəaliyyətində faydalı olacaq, yubilyar əsərlərin yenidən kəşf edilməsinə və onların daha geniş oxucu kütləsinə çatdırılmasına mühüm töhfə verəcəkdir. Kitabxanalar hər zaman zəngin bilik xəzinəsi kimi

minlərlə oxucunun mütaliə mənbəyi olan bir sərvət hesab edilmişdir. Ona görə ki, bu bilik müəssisələri öz sərvətilə minlərlə uşaqların dünyagörüşlərinin formalaşması və inkişaf etməsində böyük rol oynayır. Burada mütaliə ilə qazandıqları bilikləri ilə hər bir uşaq, dünyagörüşlərini zənginləşdirib, vətənini sevməyi, dostluqda möhkəm olmağı, ailədə sədaqətli olmağı öyrənir, gələcək uğurlarına yol açaraq dünya xalqlarının mədəni əlaqələrinə qapı açır, hansı peşəni seçəcəyini müəyyənləşdirir. Çünki mədəni biliklərinin artırılması üçün ədəbiyyatın təbliği əsas vasitələrdəndir. Buda özlüyündə kitabxanaların əsas fəaliyyətlərindən biridir. Hətta “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının qanununda da belə deyilir: “Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialının inkişafına kömək göstərən sosial institutdur. Çünki kitabxanaların sərvəti olan kitablar bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcılarıdır.” Bu baxımdan F.Köçərli adına Respublika uşaq kitabxanasında həyata keçirilən müxtəlif layihələr oxucuların dünyagörünüşlərinin inkişafı və formalaşmasında xüsusi rol oynayır, onlar tərəfindən çox maraqla qarşılanır. Bu tədbir formaları sırasında əlamətdar günlər, yubilyar yazıçı və şairlərlə bağlı təşkil edilən layihələr, videoçarxlar, oxucuların tərcüməçi və yazarlarla, müxtəlif sahələrdə çalışan insanlarla görüşü, yeni kitabların təqdimatı, kitab sərgiləri, və s. yer alır. Bundan əlavə yubilyar kitablar haqqında hazırlanmış yaddaş kitabçası ilə də tanış olmaq oxuculara çox maraqlı olan tədbirlərdəndir. Ona görə ki, yubilar kitablar haqqında vəsaitlərdə onlar oxuduqları kitabların keçmiş nəşr variantlarını tanıyır, onlara maraqlı gələn kitabları yenidən mütaliə etmək istəyirlər. Hər il olduğu kimi bu ildə ədəbiyyatımızın incilərini unutdurmamaq üçün yubileyi olan əsərlər və kitablar haqqında bildiklərimizi çatdırmaqla onları mütaliəyə daha da həvəsləndirmək istəyirik. Kitablarla onları tanış etmək üçün bu vəsaiti təqdim edirik. Lakin fərqli olaraq bu il mövcud vəziyyətlə bağlı bu kitablarla onlar onlayn şəkildə də tanış ola biləcəklər. Vəsaitin linki kitabxananın sosial şəbəkələrində, https://clb.az/ saytında, facebook və instaqram səhifələrində yerləşdiriləcəkdir. Yubilyar kitablarımızla bağlı bu yaddaş kitabçasında oxuculara bəzi yeni tipdə təqdim edilən nəşrlərin ilk çap variantı haqqında da məlumat vermişik. Maraqlı annotasiya ilə onları bu kitabları tapıb oxumağa həvəsləndirmişik. Təhsil və mədəniyyət müəssələri işçilərinin istifadəsi üçündə nəzərdə tutulmuş vəsaitdə oxucularımız bu il çap edilməsindən 60 və 70 il otən kitablarla tanış ola biləcəklər. Kitabxananın qızıl fondunda yerləşən bu nəşrləri tanımaq üçün onların hər birinin pdf variantlarınıda sizlərə təqdim etmişik. Ümumiyyətlə https:/clb.az / saytı vasitəsi ilə bu nəşrlərlə hər biriniz kitabxananın saytında tanış ola bilərsiniz.Vəsaitdə kitablar illər üzrə xronolojo ardıcıllıqla yığılmışdır.

## 1941 – 85 il



**Əlizadə Məhərrəm. Qonaq : Böyük yaşlı uşaqlar üçün. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1941. - 168 s.**

Əlizadə Məhərrəm Azərbaycan ədəbiyyatında tanınan yazıçılardan biridir. O, əsasən uşaqlar və yeniyetmələr üçün yazdığı əsərlərlə yadda qalıb. Yaradıcılığında sadə dil, həyatilik və tərbiyəvi mövzular üstünlük təşkil edir. “Qonaq” əsəri Məhərrəm Əlizadənin maraqlı və düşündürücü hekayələrindən biridir. Əsərdə əsas ideya qonaqpərvərlik, insanlıq və münasibətlərdə səmimiyyət mövzuları üzərində qurulub. Hekayədə bir ailəyə gələn qonağın qarşılanması və onunla bağlı hadisələr təsvir olunur. Əsər boyunca: İnsanların qonağa münasibəti, ev sahibinin davranışı, qonağın xarakteri və davranışı açılır. Müəllif göstərir ki, qonaq qəbul etmək sadəcə adət deyil, həm də mədəniyyət və mənəviyyat göstəricisidir. Əsərdə bəzi hallarda insanların zahiri nəzakət göstərilsə də, daxilən səmimi olmaması da incə şəkildə tənqid olunur. Əsərin əsas ideyası: Qonaqpərvərlik səmimi olmalıdır İnsan münasibətlərində dürüstlük vacibdir. Hər kəs davranışı ilə öz xarakterini göstərir. Əsər həm uşaqlar, həm də böyüklər üçün ibrətamizdir və oxucunu öz davranışları haqqında düşünməyə vadar edir.

https://drive.google.com/file/d/1pQN0QCED83dnMK2gDKBfc225Xud_8Jqt/view




**Низами Гянджеви. Сказка о русской царевне : Из поэмы “Семь красавиц” . - Bakı : Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, 1941. - 40 c.**

Nizami Gəncəvinin “Yeddi gözəl” poemasında yer alan rus şahzadəsinin (və ya rus gözəlinin) hekayəsi haqqında olan kitab, adətən dahi şairin “Xəmsə”sinə daxil olan bu poemadan bir parça və ya uşaqlar üçün nağıl şəklində nəşr edilmişdir. Nizami Gəncəvinin “Yeddi gözəl” poemasındakı həmin hekayədə Bəhram şahın yeddi gözəldən biri olan rus şahzadəsi ilə söhbəti (o, “Qırmızı Günbəz”də nağıl danışır). “Nizami Gəncəvi - Yeddi Gözəl”: Bir çox nəşriyyatlarda (məsələn, “Qanun”, “Alinino”) bu poemalar ayrı-ayrı kitablar və ya uşaqlar üçün nağıl kitabları (şəkilli) şəklində tapıla bilər. Bu hekayə, “Yeddi Gözəl” kitablarında rus qızının fəziləti, ağlı və gözəlliyi mövzusunda təqdim olunur. Rus dilində nəşr edilmiş bu kitab uşaqlar üçün 1941-ci ildə nəşr edilmişdir.




**Xəlil Zeynal Rza oğlu. Qatır Məmməd : Poema . - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1941. - 31 s.**

Poemada Qatır Məmmədin düşmənlə mübarizəsindən, düşmənlərə qalib gələrək daim xalqın arxasında olmasından danışılır. Zeynal Xəlil bu mövzuda yazdığı əsərdə xalq qəhrəmanlığı, mübarizə və ədalət uğrunda savaş ideyasını ön plana çıxarır. "Qatır Məmməd" obrazı burada artıq sadəcə bir kəndli yox, daha çox: güclü iradəli insan haqqı müdafiə edən şəxs, ədalətsizliyə qarşı çıxan simvol kimi təqdim olunur.

https://drive.google.com/file/d/1I7uw0YjqLqbOPZaeDi5nNwqOYF2Bg_Bn/view

**1946 - 80 il**




**Balaca keşikçi / tərt.ed. İ. İshaq . - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 16 s.**

Hekayə möhkəm iradəyə, həqiqi sözə malik olan bir uşağın qorxmazlıq və hünərindən bəhs edir.

**https://drive.google.com/file/d/11TVr_xSBj54ZRUrbrPw1dj0OVc7iDpf9/view**




**Dilbazi Mirvarid Paşa qızı. Bahar. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 15 s.**

Kitabda müəllif müxtəlif yaz güllərinin tərifini vermişdir. Mirvarid Dilbazinin "Bahar" adı ilə məşhur kitabı geniş şəkildə ayrıca nəşr kimi tanınmasa da, onun yaradıcılığında bahar mövzusu çox önəmli yer tutur.

https://drive.google.com/file/d/19AETAkmRLb11YJye5CP3HuCJnExiAO7D/view




**Nizami Gəncəvi. Yeddi gözəl : Poema ; tərc. ed. R. Məmməd . - Bakı : Uşaqgəncnəşr, 1946. - 98 s. - kiril əlifbası ilə**

“Xəmsə”nin dördüncü kitabı olan “Yeddi Gözəl” Nizami yaradıcılığının ana xəttini təşkil edir. Bu il 80 illik yubileyi olan müəllifin məşhur poeması olan bu kitab “Yeddi gözəl”in sovet dövründə çap olunmuş erkən nəşrlərindən biridir. 1946 - cı ildə çap edilən kitab Azərbaycan dilində olub epik poema janrındadır. Kitabın mövzusu Şah Bəhram Gurun həyatı və yeddi gözəl şahzadə ilə bağlı rəmzi, fəlsəfi hekayələrdən ibarətdir. Bu nəşr adətən sovet dövrünün kitab tərtibatına uyğun sadə dizayn, klassik şrift və bəzən illüstrasiyalarla çap olunsada sonradan nəfis tərtibatla təkrar nəşr edilərək oxucuların ixtiyarına verilmişdir. “Yeddi gözəl” (orijinal adı Haft Peykər) Xəmsəyə daxil olan poemalardan biri olub əsərdə yeddi fərqli ölkədən olan şahzadələr, yeddi gün və yeddi rəng simvolikası, əxlaq, ədalət və insan kamilliyi ideyaları geniş şəkildə təsvir olunur. 1946-cı ilin nəşrinin əhəmiyyəti həmdə ondan ibarət oldu ki, Azərbaycan dilində klassiklərin yayılmasında mühüm rol oynadı. Aşağıdakı linkdə kitabxanamızın clb.az saytında yerləşdirilmiş pdf variantı ilə tanış olub istifadə edə bilərsiniz.

**https://drive.google.com/file/d/1uvWLonVC_mCqA9JjdHkDOzEjgqX-kRPI/view**




**Gözəlov Cahangir. Qurd və keçi. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 14 s.**

Bu kitab Azərbaycan uşaq ədəbiyyatında tanınan yazıçılardan biri Cahangir Gözəlovundur. Onun “Qurd və keçi” adlı bu hekayəsi didaktik (öyrədici) məzmunlu kiçik nağıllar sırasına aiddir. Hekayədə qurd və keçi arasında baş verən hadisələr pisniyyətli insanların cəzalarına çatacaqlarını göstərir. Personaj olaraq qurd hiyləgər, acgöz və aldadıcı obraz kimi göstərilir. Keçi isə sadə, ehtiyatlı, amma bəzən də inanan bir heyvan obrazı olaraq verilir. Burada qurd keçini aldatmaq üçün müxtəlif bəhanələr uydurur. Onun məqsədi keçini tələyə salıb yeməkdir. Lakin keçi hər dəfə ona tam inanmır və qurdun hiylələrinə diqqətlə yanaşır ağıllı davranaraq yeyilməkdən xilas olur, qurd isə öz hiyləsinin qurbanı olur. Əsərin əsas ideyasına gələndə görünür ki, hiylə və yalan həmişə ifşa olunur, Həyatda həmişə ağıllı və diqqətli olmaq vacibdir. Sadəlövhlük bəzən təhlükəli olsada pis niyyətli insanlar həmişə öz cəzalarını alırlar. Bu hekayə uşaqlara davranış qaydalarını çatdırmaq üçün yazılıb. Yazıçı hekayədə sadə heyvan obrazları ilə insan xarakterlərini belə göstərərək: pis niyyətli olmamağa səsləyib. Qurd - pis niyyət,

hiyləgərlik, Keçi - sadəlik, ehtiyatlılıq, bəzən də ağıllı qərar. Kitabxananın qızıl fondunda saxlanılan kitabın pdf forması istifadə üçün aşağıdakı linkdə verilmişdir.

https://drive.google.com/file/d/1NURxRPx2ZL-LREznlg_A3IrOQC6ClDH8/view




**Gözəlov Cahangir. Nazimin səhvi. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 8 s.**

Cahangir Gözəlov Azərbaycan ədəbiyyatında, xüsusilə uşaq ədəbiyyatı sahəsində tanınmış yazıçılarından biridir. `Onun əsərləri adətən  tərbiyəvi məzmunu – uşaqlara düzgün davranış qaydaları aşılamaq üçün olması, sadə dili, real həyat hadisələri ilə zəngin olması ilə fərqlənir. Bu hekayələr uşaqların tərbiyəsinə, düzgün davranış qaydalarına və mənəvi dəyərlərə həsr olunub. Onun yazdığı Nazimin səhvi" hekayəsi də Azərbaycan uşaq ədəbiyyatında tərbiyəvi məzmunu ilə seçilən hekayələrdən biridir. Əsər əsasən uşaqlarda düzgün davranış, məsuliyyət və səhvdən nəticə çıxarma kimi keyfiyyətləri formalaşdırmaq məqsədi daşıyır. Hekayənin baş qəhrəmanı olan Nazim adlı bir uşaq bəzən tələskənlik edir və düşünmədən hərəkətlər edir. Ona görədə bir gün Nazim etdiyi bir səhv nəticəsində həm özünə, həm də ətrafındakılara çətinlik yaradır. Bu hadisədən sonra o, səhvinin fərqinə varır və peşman olur. Həmişə düzgün davranmağın vacibliyini anlayır. Əsərin əsas ideyası da elə  budur ki, insan səhv edə bilər, amma əsas olan səhvi başa düşmək və onu təkrarlamamaqdır. Bu hekayə uşaqlara məsuliyyətli olmağı, düşünərək hərəkət etməyi, başqalarına zərər verməməyə çalışmağı, səhvdən dərs çıxarmağı öyrədəcəkdir. "Nazimin səhvi" – hekayəsi uşaqlara səhvdən nəticə çıxarmağı və dürüst olmağı öyrədən müəllifin məşhur hekayəsidir. Uzun illər bu hekayə uşaqların məktəb dərsliklərinə salınmışdır. Bu maraqlı hekayə əsasında kitabxanada uşaqlarla söhbət təşkil edə bilərik. Bu hekayə şagirdlərdə düzgün davranış, məsuliyyət və səhvdən nəticə çıxarma bacarıqlarını formalaşdırmaq üçün gözəl vasitədir. Kitabxanaçı hekayənin məzmununu izah edib, nağıl əsasında  müzakirə keçirə bilər. Hekayənin baş qəhrəmanı kimdir?, Nazim necə uşaq idi?, Etdiyi səhvin nəticəsi nə oldu?, Sonda Nazim nəyi başa düşdü?, Siz heç səhv edib onu gizlətmisinizmi?, "Mən səhv edəndə nə edirəm?" və b . suallarla kitabxanaçı əsərin məzmunu və məqsədi haqqında sual-cavab təşkil edir. Sonda fəal iştirakçıları  qiymətləndirlir.

https://drive.google.com/file/d/1VCDrL_wnpSdWbptE4-029i72em4Zrnf0/view




**Soltan İ. Əqrəb və qurbağa. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 8 s.**

“Əqrəb və Qurbağa” müəllifin məşhur bir ibrətamiz təmsildidir  və adətən ayrıca kitabdan çox, müxtəlif nağıl və təmsil toplularında yer alır. Hekayənin mənası budur ki, insan və ya varlıq öz təbiətindən heç vaxt qaça bilməz. Pis niyyətli insana həddindən artıq etibar etmək çox təhlükəlidir. Bəzən elə olur ki, məntiq yox, xarakter qalib gəlir. Təmsildə əqrəbin qurbağa ilə dost olsa da, sonda onu sancması bir ibrətdir. Uşaqlara dostluq, etibar və xarakter anlayışlarını aşılamaq hekayə vasitəsilə düzgün nəticə çıxarmağı öyrətmək üçün təmsilin müxtəlif formada təbliğini həyata keçirmək lazımdır. Belə tədbirlər gələcək nəslə müzakirə bacarıqlarını inkişaf etdirmək, uşaqlara dostluq, etibar və xarakter anlayışlarını aşılamaq, düzgün nəticə çıxarmağı öyrətmək üçün məqsədəuyğundur. Hekayə əsasında kiçik bir tədbirin ssenarisini istifadə üçün təqdim edirik.

**Aparıcının giriş sözü:** Salam, əziz uşaqlar və hörmətli qonaqlar! Bu gün biz çox maraqlı və düşündürücü bir hekayə ilə tanış olacağıq — “Əqrəb və Qurbağa”. Bu hekayə bizə bir sual verir:

- İnsan (və ya varlıq) öz təbiətini dəyişə bilərmi?

Gəlin birlikdə bu hekayə ilə tanış olaq  və cavab tapaq.

*(Səhnədə Qurbağa və Əqrəb çıxır)*

Əqrəb:
Qurbağa, məni çayın o biri sahilinə keçir.
Qurbağa:
Səni necə aparım? Məni sancarsan!
Əqrəb:
Səni sancsam, mən də boğularam. Bu mənə sərf etməz.
Qurbağa:
(hesablayır) Düz deyirsən... yaxşı, min belimə.
(Səhnədə çayı keçirlər)
Qurbağa:
Artıq sahilə çatırıq...
(Birdən Əqrəb sancır)
Qurbağa:
Niyə bunu etdin?!
Əqrəb:
Çünki bu mənim xasiyyətimdir...

Bu hekayə bizə öyrədir ki:

Bəzi insanların xasiyyəti dəyişmir
Hər kəsə kor-koranə inanmaq olmaz
Ağılla qərar vermək vacibdir.
Qısa səhnəcikdən sonra tamaşaçılar üçün suallar hazırlayırıq.

1. Qurbağa düzgün qərar verdimi?
2. Əqrəbin hərəkətinə haqq qazandırmaq olar?
3. İnsan xasiyyəti dəyişə bilərmi?...

Siz Qurbağanın yerində olsaydınız nə edərdiniz?
Kitabın pdf variantı kitabxananın clb.az saytında yerləşdirilmişdir.1946-cıl ildə nəşr edilən təmsilin tərcüməsi verilmiş bu kitabla aşağıdakı linkdə tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/1ZtYzDdTpO2-Au_qZZN8LuaCxRxPRxeph/view



**Şaiq, Abdulla. Qoçpolad. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946. - 73 s.**

Bu əsər Abdulla Şaiq tərəfindən yazılmış, Azərbaycan uşaq ədəbiyyatının klassik nümunələrindən biridir. Daha çox kiçik yaşlı oxucular üçün nəzərdə tutulmuş əsərdir. Əsərdə əsas məqsəd uşaqlarda cəsarət, düzgünlük, və mərdlik kimi keyfiyyətləri formalaşdırmaqdır. Qoçpolad" əsəri Abdulla Şaiq tərəfindən yazılmış uşaq hekayələrindən biridir və əsasən ayrıca böyük roman kimi deyil, uşaq hekayələri və dərslik tipli topluların tərkibində nəşr olunmuşdur. Çox vaxt ayrıca kitab kimi yox, Şaiqin "Seçilmiş əsərləri", "Uşaq hekayələri" və ya məktəb üçün nəzərdə tutulmuş oxu kitabları daxilində çap edilimiş bu əsər xüsusilə Sovet dövründə təxminən 1930–1980-ci illər arasında dəfələrlə nəşr olunub və məktəblərdə istifadə edilib. Nəşrlərin əksəriyyəti illüstrasiyalı uşaq kitabları formasında olub ki, bu da əsərin uşaqlar tərəfindən daha rahat mənimsənilməsinə kömək edirdi.1977-cildə təkrar nəşr edilmiş bu kitabın 1961-ci il çapından bu il 65 il keçir. F. Köçərli adına Respublika Uşaq kitabxanasının qızıl fondunda yer alan kitabın pdf forması ilə aşağıdakı linkdə tanış ola bilərsiniz. Əsərin mərkəzində Qoçpolad adlı uşaq (və ya gənc qəhrəman obrazı) dayanır. O, çətin vəziyyətlərdə qorxmazlıq göstərir, ədalətsizliyə qarşı çıxır, və düzgün davranış seçir. Hadisələr sadə dillə qurulduğu üçün uşaq oxucular üçün anlaşıqlıdır və tərbiyəvi məzmun daşıyır.Kitabxanada kitabın təbliği üçün hazırlanmış ssenarini təqdim edirik:

**https://drive.google.com/file/d/1dXTcZFjFJH78LA47MhG9sRh6yJPgUuGv/view**




**1951- 75 İL**

**Babayeva Ələviyyə Hənifə. Hekayələr ; red. Q. Müştaq. - Bakı : Uşaqgəncnəşr, 1951. - 16 s. - kiril əlifbası ilə**

Azərbaycan ədəbiyyatında daha çox uşaqlar və gənclər üçün yazdığı əsərlərlə tanınan yazıçı Ələviyyə Babayevanın 1951-ci ildə nəşr olunan hekayələr kitabı yaradıcılığının erkən dövrünə aid olub həmin dövrün sosial-mənəvi mühitini əks etdirir. Hekayələr toplusu olan kitabın mövzusu uşaqların dünyası, əmək, dostluq, dürüstlük, sovet dövrünün gündəlik həyatını əks etdirir. Kitabın oxucular tərəfindən sevilməsinin əsas səbəbi sadə və anlaşıqlı dildə olub uşaqlar və yeniyetmələr üçün rahat oxunmasıdır. Məzmununa görə tərbiyəvi xarakter daşıyan bu hekayələrdə yaxşılıq, zəhmət, insanlıq kimi dəyərlər ön plandadır. Kənd və şəhər həyatından götürülmüş obrazların yer aldığı hekayə qəhrəmanları əsasən uşaqlardır. 16 səhifəlik kitabda "Sabirin bacısı", "Gülarənin ad günü", "Qələm" və "Zərifə" hekayələri verilmişdir. Kitabla yaxından tanış olmaq üçün Firidun bəy Koçərli adina kitabxananın clb.az saytında yerləşdirilmiş aşağıdakı linkdə tanış ola bilərik.

**https://drive.google.com/file/d/1cteHPLf98S-eZhbDi4shUzGQsClYbl1F/vi**

**70 il 1956-cı il**




**Dilbazi Mirvarid. Balaca dostlarım :Hekayə. - Bakı : Uşaqgəncnəşr, 1956. - 47 s.**

"Balaca dostlar" müəllifin  uşaqlar üçün yazdığı şeir kitablarından biridir. Bu kitabda uşaqların dünyasına uyğun sadə və şirin şeirlər toplanmışdır. Kitabda təbiət, heyvanlar, dostluq, mehribanlıq kimi mövzular işlənir. Uşaqlarda yaxşılıq, mərhəmət, sevgi hisslərini formalaşdırır.

Kitabın dili sadə olduğu üçün həm oxumaq, həm də əzbərləmək rahatdır. Kitab əsas uşaq psixologiyasına uyğun yazılıb ritmik və yadda qalan şeirlərdən ibarətdir. Mövzusu məktəbəqədər və ibtidai sinif uşaqları üçün çox uyğundur. Bu kitab Azərbaycan uşaq ədəbiyyatının klassik nümunələrindən sayılır və uşaqlara düzgün davranış, təbiətə sevgi, dostluğun dəyəri anlayışlarını öyrədir. Kitabın pdf forması ilə aşağıdakı linkdə tanış ola bilərsiniz.

**https://drive.google.com/file/d/16rqa2TI89Bg4oOu4izYksXwg_zzF0GbO/view**




**Haqverdiyev Əbdülrəhimbəy. Seçilmiş əsərləri. - I cild. 1956. - 547 s. - kiril əlifbası ilə**

Bu topluya yazıçının ən tanınmış əsərləri daxil edilib. Bunlardan “Dağılan tifaq” (dram), “Bəxtsiz cavan”(dram), “Ağa Məhəmməd şah Qacar” (tarixi dram), “Ac həriflər” (hekayələr silsiləsi) və müxtəlif satirik və realist hekayələr daxil edilmişdir.

Haqverdiyevin bu kitabda toplanmış əsərlərində cəmiyyətin sosial problemlərini tənqid edir, cahillik, ədalətsizlik və geriliyi ifşa edirdi. Kitab realist və satirik üslubla yazılıb və Azərbaycan dramaturgiyasının inkişafında böyük rol oynayıb. Sonradan yenidən nəşr olunsa da kitabın 1956-cı il nəşri xüsusilə qiymətlidir, çünki: bu nəşr klassik irsin qorunması məqsədi daşıyıb, məktəblər və ali təhsil üçün tədrisdə istifadə olunurdu. Bir sözlə bu kitab Haqverdiyevin yaradıcılığını sistemli şəkildə təqdim edirdi. Ona görədə müəllifin bu kitabı tarixi düşüncə tərzini anlamaq üçün vacibdir. Kitabın üslubuna nəzər yetirəndə görürük ki, realizm və satira ilə Haqverdiyev cəmiyyətdəki problemləri açıq və bəzən istehzalı dillə göstərir. Obrazların canlılığı isə mütaliə edərkən oxucuya real həyatdan götürülmüş kimi təsir bağışlayır. Kitabın pdf variantı ilə clb.az saytında yerləşdirilmişdir.

file:///C:/Users/laman.muxtarova/Downloads/E.Haqverdiyev%20Secilmis%20eserleri%202cild.pdf




**Səhhət Abbas. Cücələr; red. O. Sarıvəlli. - Bakı : Uşaqgəncnəşr, 1956. - 6 s. : şək. - kiril əlifbası ilə**

“Cücələr” kitabı — Azərbaycanın tanınmış şairi Abbas Səhhət tərəfindən yazılmış uşaqlar üçün şeir toplusudur. Bu kitab xüsusilə balaca uşaqlar üçün nəzərdə tutulub və çox sadə, şirin, yadda qalan şeirlərdən ibarətdir. “Cücələr” kitabı — Abbas Səhhət tərəfindən yazılmış məşhur uşaq şeiri əsasında yazılmış ayrıca kitab kimi 1951-i ildə nəşr edilmişdir. Sonrakı illərdə şeir adətən onun uşaqlar üçün yazdığı şeirlərin toplandığı kitablarda məsələn, “Yay səhəri”, “Seçilmiş əsərləri” və s. yer almışdı. Kitabda “cücələr” obrazı vasitəsilə təbiətə sevgi, qayğıkeşlik, sadə həyat hadisələri, uşaq dili ilə izah olunur. Bu şeir çox vaxt ritmik və musiqilidir. Buna görə də uşaqlar onları asan əzbərləyir. Azərbaycan uşaq ədəbiyyatının klassik nümunələrindən olan bu şeir sadə dili və mehriban mövzusu ilə yadda qalan olduğu üçün məktəblərdə tez-tez öyrədilir. Kitabın tam variantda pdf forması clb.az saytında yerləşdirilmişdir.

https://drive.google.com/file/d/1PyEVvsYrghbwtTVvbOHikw8LKPhUt4Tz/view




**Şirvani, Xaqani. Seçilmiş əsərləri ; red.: M. Rahim, M. Əlizadə ; rəs. Q. Xalıqov. - Bakı : Azərb. SSR EA nəşriyyatı, 1956. - 476 s. - kiril əlifbası ilə**

12-ci əsr Azərbaycan ədəbiyyatının ən böyük şairlərindən biridir və onun əsərləri müxtəlif dövrlərdə, o cümlədən 1956-cı ildə SSRİ dövründə də çap olunub. 1956-cı il nəşri şairin seçilmiş əsərləri və ya elmi-tənqidi toplusudur. 1956-cı il "Seçilmiş əsərləri" nəşri sovet dövrü akademik tərtibatlı kitabdır. Bu nəşrdə əsərlər janrlara görə bölünür və içində müəllifin ən məşhur iri poeması da daxil edilir. 1956- cı ilin nəşri
Giriş hissəsi
Ön söz (ədəbi-tarixi izah)
Xaqani Şirvaninin həyatı və yaradıcılığı haqqında məlumat
Mətnlərin elmi izahı və qeydlər kimi bölmələrə bölünür
"Töhfətül-İraqeyn" poeması kitabın ən böyük və əsas hissəsidir. Bu poema səyahət və fəlsəfi-poetik poema olub poemada Xaqaninin Şərq səfəri təsvir olunur.

**65 il**




**Abbaszadə H. Yun corab; Hüseyn Abbaszadə; red. N. Həsənzadə; rəs. R. Əmirov.- Bakı: Uşaqgəncnəşr, 1961.- 12 s.**

1961-ci ildə kiçikyaşlılar üçün nəşr edilmiş müəllifin mənzum hekayəsində qoca nənənin zəhmətkeşliyindən, corab hörmək üçün yun daramasından, yun corabları toxumaq üçün ipləri necə əyirib çiçəklərdən topladığı rənglərlə boyamasından söhbət açılır. Nənəsinin belə güllü-çiçəkli toxuduğu corablara onun nəvəsi çox heyrandır. O deyir ki, nənəsi çox zəhmətkeşdir. Nə qədər işi çox olsa da millərini əlinə alıb corab toxuyanda sanki yorğunluğu çıxır. Özü də yaratdığı bu güllü-çiçəkli gözəlliklərdən zövq alır. Kitab kiçikyaşlıları ağbirçək nənənin timsalında zəhmətsevərliyə səsləyir, onlara öz işlərini həmişə can yandıraraq, zövq alaraq öhdəsindən gəlməyi aşılayır. Bu il nəşrin işıq üzü görməsindən 65 il ötür. Uzun illər uşaqlarımızın sevə-sevə oxuduğu Göyərçin jurnalının baş redaktoru olmuş müəllifin yubilyar kitablardan olan bu mənzum hekayəsi ilə tanış olmağı oxucularımızada tövsiyə edirik. Bu mənzum hekayə onlar üçün də çox maraqlı olacaq. Redaktoru Nəriman Həsənzadə olan bu kitab 1961-ci ildə uşaqgəncnəşrdə nəşr edilmişdir. Kitabla aşağıdakı linkdə tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/1dVU--C5b-o0-xJB5efLmnuKlpnIjEK81/view

**Abbaszadə H. Yasəmən : Şeirlər . - Bakı : Azərnəşr, 1956. - 64 s. - kiril əlifbası ilə**

Bu kitab Hüseyn Abbaszadə tərəfindən uşaqlar üçün yazılmış hekayələr toplusudur. Əsərlərdə əsasən uşaqların həyatı, davranışları və tərbiyəsi təsvir olunur.“Yasəmən” kitabı Hüseyn Abbaszadənin uşaqlar üçün yazdığı maraqlı əsərlərdən biridir. Bu kitabda uşaqların həyatı, dostluq münasibətləri və düzgün davranış qaydaları təsvir olunur. Əsərin əsas ideyası insanın mehriban, dürüst və tərbiyəli olmasıdır. Məncə, bu kitab uşaqlara yaxşı insan olmağı öyrədir və çox faydalıdır. Hüseyn Abbaszadə Azərbaycan uşaq ədəbiyyatının tanınmış nümayəndələrindən biridir. Onun “Yasəmən” kitabı uşaqlar üçün yazılmış maraqlı və tərbiyəvi hekayələr toplusudur.







Mən tək deyiləm” əsəri 1961-ci ildə nəşr olunmuşdur və həmin dövr Azərbaycan uşaq və yeniyetmə ədəbiyyatının diqqətçəkən nümunələrindən sayılır. Bu kitabda əsas fikir ondan ibarətdir ki, insan həyatda çətinliklərlə üzləşsə belə, heç vaxt tam tək deyil. Onu anlayan insanlar, dostlar və ya ailə hər zaman mövcuddur. Əsərdə bir məktəbli uşağın həyatı təsvir olunur. O özünü sinifdə və cəmiyyətdə yad hiss edir, daxili narahatlıq, tənhalıq yaşayır, başqalarının onu anlamadığını düşünür. Kitabda 1960-cı illər Azərbaycan ədəbiyyatında uşaqlara və gənclərə mənəvi dəyərlərin aşılanması, kollektivlik, dostluq və humanizm mövzusu geniş yer tutur. Bu əsər bir uşağın daxili dünyasını, onun tək qalmaq qorxusunu və zamanla bu hissi necə aşdığını təsirli şəkildə göstərir. Hekayənin sonunda qəhrəman böyük bir həqiqəti dərk edirki, insan tək deyil — sadəcə bəzən bunu hiss etmir. O anlayır ki, dostluq qurmaq üçün addım atmaq lazımdır. İnsanlar bir-birinə dayaq ola bilərlər. Ən əsası, ümidi itirməmək lazımdır. Bəzən daxili qorxudan yaranan tənhalıq hissini ünsiyyət

və anlayış hissi aradan qaldırır. Demək hər bir insanın həyatda öz yeri və onu anlayan insanlar vardır.

https://drive.google.com/file/d/1JyfLn_LF5yRtz_rkDi6TjBEhoauXidug/view




**Vəliyev M. S.S.Axundov . - Bakı : Uşaqgəncnəşr, 1956. - 110 s. - kiril əlifbası ilə**

Kitab Məsud Vəliyevin "S.S. Axundov" adlı əsəridir. Bu kitab Azərbaycan ədəbiyyatşünası Məsud Vəliyev tərəfindən yazılmış elmi monoqrafiyadır və yazıçı Süleyman Sani Axundov haqqında ilk ciddi tədqiqatlardan biri sayılır. 1956-cı ildə Bakıda nəşr edilmiş kitab elmi-tədqiqat xarakterli monoqrafiyadır. Bu kitabda Axundovun həyatı və ictimai fəaliyyəti, onun maarifçi ideyaları, hekayə və dram yaradıcılığı, onun Azərbaycan ədəbiyyatında rolu geniş şəkildə təhlil olunur. Bu əsər sonrakı tədqiqatlar üçün əsas mənbələrdən biri hesab edilir.




**Vəliyev Əli. Ürək dostları : Roman. - Bakı : Gənclik, 1956. - 279 s. - kiril əlifbası ilə**

"Ürək dostları" Azərbaycan yazıçısı Əli Vəliyevin məşhur əsərlərindən biridir. Bu kitab uşaqlar və gənclər üçün yazılsada, böyüklər üçün də mənalı və düşündürücüdür. Kitabda dostluq, səmimiyyət, insanlıq, yardımsevərlik kimi mövzular əsas yer tutur. Hadisələr uşaqlar arasında baş verən dostluq münasibətləri üzərində qurulub. Müxtəlif xarakterli qəhrəmanlar vasitəsilə müəllif göstərir ki, həqiqi dostluq sınaqlardan keçir. Dostunun çətin anlarında ona dayaq olmaq vacibdir. Dürüstlük və səmimiyyət dostluğun əsasını təşkil edir. Hadisələr inkişaf etdikcə qəhrəmanlar həm mənəvi cəhətdən böyüyür, həm də həyat dərsləri alırlar.Hadisələr uşaqların və ya gənclərin həyatından götürüldüyündən oxucuya yaxşı dost olmağın dəyərini göstərir. Əsər sadə və anlaşıqlı dildə yazıldığı üçün məktəblilər üçün çox uyğundur.

**Süleymanov Nəriman. Balaca atlı. - Bakı : Uşaqgəncnəşr, 1956. - 34 s. - kiril əlifbası ilə Kitabda Sədəfli saz, Qoruqçu, Subay naxır, Ağac kölgəsində və s. şeirləri verilmişdir.**

Nəriman Süleymanov 1930-1995 - ci illərdə fəaliyyət göstərmiş Azərbaycan yazıçısı, publisist, tərcüməçi, XX əsrin ikinci yarısında uşaq ədəbiyyatının ən parlaq nümayəndələrindən biri kimi tanınmış, "Günəş" jurnalının uzunillik baş redaktoru olmuşdur. Onun əsərləri sadə, doğma dili və yüksək tərbiyəvi məzmunu ilə seçilimişdir. Hekayəsinin adı ilə adlandırdığı "Balaca atlı" kitabı Azərbaycan uşaq

ədəbiyyatında tanınan məşhur kitablardan biridir. Bu əsər daha çox uşaqlarda cəsarət, mərdlik və vətənə bağlılıq hisslərini formalaşdırmaq məqsədi daşımışdır. “Balaca atlı” hekayəsində əsas obraz kiçik yaşlı, amma ürəkli bir uşaqdır. Hekayədə əsasən kənd mühitində cərəyan edən hadisələrlə qəhrəman ata minməyi, çətinliklərlə mübarizə aparmağı uşaqlıqdan öyrənir. Əsərin əsas ideyası heyvanlara sevgi və qayğı, dostluğun əhəmiyyəti, çətinliklər qarşısında qorxmamaqdır. Bununla hekayə uşaqlara heyvanlara qarşı mərhəmətli olmaq, əməkdən qorxmamaq, çətinliklər qarşısında dözümlü olmaq, kimi dəyərlər öyrədir. Əsər dostluq və sədaqətin dəyərini aydın şəkildə təbliğ edir. Nəriman Süleymanov həm yaradıcı irsi, həm də şəxsiyyəti ilə Azərbaycan ədəbiyyatında səmimiyyətin və insanpərvərliyin tərənnümünün simvolu sayılır. Oxucular və həmkarları onu “insanlıq etalonu” kimi xatırlayırlar. Bu kitabın indiyədək sevilməsinə səbəb isə sadə və anlaşıqlı dildə yazılması, maraqlı süjet xəttinin olması, tərbiyəvi məzmunudur. Uşaqların dünyagörüşünə uyğun yazılmış hekayənin  kitab halında  nəşrindən bu il 60 il ötür.

**Vazeh Mirzə Şəfi. Nəğmələr ; tərt.ed. F. Sadıqzadə ; red. F. Sadıqzadə. - Bakı : Uşaqgəncnəşr, 1961. - 128 s. : şək. ; 17 sm. - kiril əlifbası ilə.**




Mirzə Şəfi Vazeh XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Şeirlərində sadə dil, dərin məna və insani duyğular ön planda olan şairin yaradıcılığı sonradan Avropada xüsusilə alman dilində yayılıb və tanınmışdır. Böyük Azərbaycan şairi və mütəfəkkiri Mirzə Şəfi Vazehin bu kitabı azərbaycan dilində ilk dəfə 1961-ci ildə çap olunmuşdur. Kitabda şairin Azərbaycanca şeirlərinin orijinalı və sətri tərcümələri, farsca “Nəğmələr” in 1961-ci il nəşri  nəşri adətən klassik şeirlər toplusu kimi çap olunmuşdur. Bu kitabın müxtəlif kitabxana nüsxələrində adı bir az fərqli yazılmışdır.  “Vazeh. Nəğmələr” 1961. “Nəğmələr” klassik Azərbaycan poeziyası nümunələrinin toplusudur. Kitabda əsasən Vazehin şeirləri və alman ədəbiyyatı ilə bağlı tərcümə uyğunlaşdırmaları yer almışdır.




**Əzimzadə Yusif. Murad dayının xatirələri: Hekayələr. - Bakı: Uşaqgəncnəşr, 1961. - 92 s.**

Murad dayının xatirələri” — Yusif Əzimzadə tərəfindən yazılmış əsərlərdən biridir və Azərbaycan uşaq ədəbiyyatında tanınan nümunələrdəndir. Murad dayının xatirələri” hekayəsi sadə bir insanın dili ilə böyük həyat həqiqətlərini izah edir. Oxuyarkən həm maraqlanırsan, həm də düşünürsən. Bu əsər əsasən xatirə formasında yazılıb və Murad dayı adlı obrazın həyatından,

gördüklərindən və keçirdiyi hadisələrdən bəhs edir. Yazıçı bu obraz vasitəsilə həm həyat təcrübəsini, həm də insanlara xas xüsusiyyətləri oxucuya çatdırır. Əsərdə Murad dayının danışdığı keçmişdə başına gələn hadisələr bəzən gülməli, bəzən düşündürücü şəkildə verilmişdir. Onun həyat yolu vasitəsilə oxucu düzgünlük, səbir və insanlıq kimi dəyərləri öyrənir. Sadə və anlaşıqlı dildə yazılan əsər uşaqlar və yeniyetmələr üçün uyğun olub onlara müsbət həyat dərsləri verir. Murad dayı kənddə yaşayan, artıq ömrünün çoxunu yaşamış, saç-saqqalı ağarmış bir insandır. Onun danışığında qəribə bir istilik, səmimiyyət var. Kəndin uşaqları tez-tez onun ətrafına yığışır onu dinləyirlər. Çünki Murad dayı keçmişdən elə maraqlı xatirələr danışardı ki, hamı onu heyranlıqla dinləyərdi. Bir gün yenə uşaqlar onun yanına toplaşanda Murad dayı keçmiş həyatından danışmağa başlayır… Murad dayı deyir ki, onların uşaqlığı indiki kimi rahat keçməyib. Kasıb ailədə böyüyüb, tez-tez çətinliklərlə üzləşib. Bəzən yemək belə çətinliklə tapılıb. Amma o, heç vaxt ruhdan düşməyib. O, kiçik yaşlarından işləməyə başlayıb – tarlada, ev işlərində, heyvanlara baxmaqda valideynlərinə kömək edib. Bu çətinliklər onu zəif yox, əksinə güclü edib. Burada Murad dayı uşaqlara deyir ki:

“İnsan çətinliklə böyüyəndə həyatı daha yaxşı anlayır.” Murad dayının obrazı ilə başlayan əsərdə o, yaşlı, həyat təcrübəsi çox olan, sadə və səmimi bir insan olaraq oxucuya təqdim olunur. Əsərin sonunda belə nəticə çıxır ki, həyat insanı yetişdirir. Təcrübə həyatda ən böyük müəllim olub düzgün insan olmaq, yaşamaq üçün hər şeydən vacibdir.

https://drive.google.com/file/d/1-a2xOiePlN_jxfudSVO_x3NVOznMAtGU/view




**1966 – 60 İL**

**Abbaszadə Hüseyn Qızılgül : Kiçik yaşlı uşaqlar üçün şeirlər, nağıllar və poemalar . - Bakı : Azərnəşr, 1966. - 96 s.**

Bu kitaba H.Abaaszadənin balaca oxucular üçün yazdığı təbiət və uşaqlar haqqında şerləri, o cümlədən üç nağılı “Başın qiyməti”, “Üç vəsiyyət” və “Fərmanlı pişik”, eləcə də poemaları daxil edilmişdir. Hüseyn Abbaszadənin yazdığı hekayə və ya nəsr əsəri kimi tanınınan və simvolik ad daşıyan bu kitab Azərbaycan yazıçısı Hüseyn Abbaszadənin uşaqlar və yeniyetmələr üçün yazdığı təsirli və düşündürücü əsərlərdən biridir. Kitab əsasən mənəvi dəyərlər, saflıq, insani münasibətlər və təbiətə sevgi kimi mövzuları əhatə edir. Əsərin əsas ideyası olan “Qızılgül” burada gözəllik, paklıq və saf sevgi rəmzi kimi verilir. Əsərdə insanların daxili aləmi və xarakteri ön plana çıxarılır. Hekayədə yaxşılıq və pislik arasındakı mübarizə göstərilir və sadə insanların gündəlik həyatı təsvir olunur. Əsərdə hadisələr

çox vaxt real həyat fonunda inkişaf edir. Yazıçı qəhrəmanların hisslərini, düşüncələrini və çətinliklərini göstərərək oxucuya mənəvi mesajlar verir. “Qızılgül” obrazı isə burada həm gözəllik, həm də ümid rəmzi kimi çıxış edir. Uşaqlarda mütaliəyə maraq yaratmaq əsərin ideyasını xeyirxahlıq, saflıq, gözəllik fikirlərini aşılamaq məqsədilə Hüseyn Abbaszadə yaradıcılığı ilə tanışlıq üçün kitabxanada “Sevgi mərhəmət dərsi – Qızılgülün nağılı” adlı tədbir keçirə bilərik. Tədbiri açan aparıcı iştirakçıları salamlayır və müəllif haqqında qısa məlumat verir.
Əsərdə gözəlliyin yalnız zahirdə olmadığı, yaxşılığın həmişə qalib gəldiyi vurğulanır. Uşaqlar tərəfindən hazırlanan şeir parçaları tədbiri daha da maraqlı edir. Bundan əlavə bu mövzuda uşaqlarla sual-cavab da kitaba marağı artırar.

“Qızılgül” əsərinin əhəmiyyəti nədir?

Qızılgül əsərdə nəyi simvolizə edir?

Əsərdə ən çox hansı hissəni bəyəndiniz?

Hansı obraz sizə daha yaxın gəldi?

Hekayə ətrafında qısa ssenari hazırlayırıq. Oxucuları hekayədən istifadə edib yaxşılıq və dostluq haqqında maarifləndiririk.
**Aparıcı:** Uşaqlar, bu gün biz yaxşılıq və dostluq haqqında bir hekayə ilə tanış olacağıq. Səhnə qurulur, iştirakçılar gəlir.
**Qızılgül:** Mən yaxşılıq etməyi sevirəm.

**Digər obraz:** Amma bəzən insanlar bunu anlamır...

**Aparıcı:** Bəs sizcə yaxşılıq qarşılıqsız olmalıdırmı?

*Sonda uşaqlarla mövzu ətrafında müzakirə aparılır*

*https://drive.google.com/file/d/140csyWCB4FnpcZQstUprZKFVFgo6M2Eh/view*




**Elçin Teymur. Bahar, adlar, uşaqlar : Məktəb yaşı çatmamış və kiçik yaşlı uşaqlar üçün şeirlər və poemalar. - Bakı : Azərnəşr, 1966. - 112 s.**

“Bahar, adlar, uşaqlar” – Teymur Elçinin uşaqlar üçün yazdığı ən məşhur kitablarından biridir. Bu kitab 1966-cı ildə nəşr olunmuş və Azərbaycan uşaq ədəbiyyatında xüsusi yer tutur. Kitab əsasən uşaq şeirlərindən ibarətdir mövzusu bahar, təbiət, uşaqların dünyası, adlar və sevincdir. Sadə dili ritmik və yadda qalan olması əsasən kiçikyaşlı uşaqlar üçün kitabı maraqlı edir. Kitabda baharın gəlişi, çiçəklər, günəş, təbiətin oyanışı təsvir olunur. Uşaqların sevinc dolu həyatı, oyunları və hissləri verilir. Müxtəlif adlar və obrazlar vasitəsilə uşaqlara yaxın bir dünya yaradılır. Kitabdakı şeirlər uşaqlar üçün asan əzbərlənir və şən və musiqilidir.

Kitab tərbiyəvi məna daşıyır və dil və söz ehtiyatını inkişaf etdirən milli uşaq ədəbiyyatının klassik nümunələrindəndir. Bu kitab çox şən, bahar əhval-ruhiyyəli və uşaqlara yaxın olduğu üçün kitab əsasında kitabxanada həm əyləncəli, həm də öyrədici tədbirlər keçirmək mümkündür. Hazırlanacaq “Bahar gəldi!” adlı ədəbi-bədii tədbirdə uşaqlar kitabdan şeirlər söyləyib, Bahar mövzusunda səhnəcik hazırlaya bilərlər.

“Ən gözəl bahar şeiri” adlı müsabiqədə uşaqlar kitabdan seçdikləri şeirləri əzbər deyə bilərlər. Keçirilən müsabiqənin sonunda münsiflər ən yaxşı ifa, ən emosional çıxış, ən səlis oxu nominasiyaları üzrə iştirakçıları qiymətləndirir.

https://drive.google.com/file/d/1bkQ_r0PlVSBlQZqs-SOPSufcLkgNFmfD/view

**1971, 55 il**




**Ağayeva Zivər. Sürəyyanın yuxusu: şeirlər. - Bakı : Gənclik, 1971. - 16 s.**

Zivər Ağayeva məşhur Azərbaycan yazıçısı və pedaqoqudur. O, əsasən uşaqlar üçün yazdığı hekayə və əsərlərlə tanınır. “Sürəyyanın yuxusu” şeiri də onun məşhur uşaq şeirlərindən biridir. “Sürəyyanın yuxusu” şeirində müəllif Sürəyyanın maraqlı yuxusundan danışır. Mövzunun oxucuların yaddaşlarına daha yaxşı həkk edilməsi üçün kitab ətrafında sual-cavab hazırlaya bilərik.

**Namiq Abdullayev. Gecələr uzanaydı: Fantastik povest və hekayələr . - Bakı : Gənclik, 1979. - 124 s.**




Kitabda əsasən insan taleləri, həyat çətinlikləri, mənəvi duyğular və cəmiyyət mövzuları bədii şəkildə təsvir olunur. Əsərin dili çox sadə və oxunaqlıdır. Əsərdə insan həyatının çətin və keşməkeşli məqamları təsvir olunur. Yazıçı gecələrin “uzanması” obrazı ilə qəhrəmanların daxili narahatlığını, düşüncələrini və həyat mübarizəsini simvolik şəkildə göstərir. Əsərdə insanların mənəvi dəyərləri, dostluq, ailə münasibətləri və cəmiyyət içində qarşılaşdıqları problemlər bədii dillə təqdim edilir. Hadisələr müxtəlif talelər üzərində qurulub və oxucuya həyat haqqında düşünmək imkanı yaradır. Kitabın əsas ideyası insanın çətinliklər qarşısında dözümlü olması, ümidini itirməməsi və mənəvi saflığını qorumasıdır. Əsərdə obrazlar vasitəsilə müəllif insanın daxili aləmini, həyat

mübarizəsini və mənəvi gücünü göstərir. Hər bir personaj əsərin ideyasının açılmasına xidmət edir və oxucunu düşünməyə sövq edir.

https://drive.google.com/file/d/1fdz2OHqgE-5RswOwb_eGf04piO6yDR6P/view

**Abbaszadə Hüseyn. Nərgizlə Nigarın nağılı: hekayələr. - Bakı : Gənclik, 1986. - 132 s.**




1986-cı ildə uşaqlar üçün nəşr edilən bu kitabda müəllifin nəvələri üçün yazdığı Nərgiz və Nigar hekayəsi verilmişdir. Kitabda  Nərgiz və Nigar hekayəsindən söhbət açılır.Kitab müəllifin giriş sözü ilə başlayır.

Əziz balalar Nərgiz və Nigar mənim nəvələrimdir. Onlar əkiz bacılardırlar. Bir-birlərini çox istəyirlər. Bu kitabda təsvir edilən hadisələrdə müxtəlif illərdə Nərgizlə Nigarın başına gəlib....Təqdim etdiyimiz bu kitabın nəşrindən bu il 40 il ötür. Uşaqlar tərəfindən maraqla oxunan bu kitabın pdf forması ilə aşağıdakı linkdə tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/13hq1DUxOSVNbYoB94vrnK6quR5BZwL7B/view




**Sahib Fətəli. Günayın sərgüzəştləri : Şeirlər və poemalar. - Bakı : Gənclik, 1991. - 112 s.**

Vətənpərvərlik, əməyə məhəbbət, yoldaşa hörmət, kitabdakı şeirlərin əsas mövzusudur. Burada yer alan kiçik poemalarda şair uşaqları dostluğa, düzlüyə, sədaqətə səsləyir. Bayramov Fətulla Manaf oğlu 1924-cü il dekabrın 12- də Azərbaycanın Ucar rayonunun Qaziyan kəndində anadan olmuşdur. Kiçik yaşlarında ikən repressiya tufanları ailəlikcə onları Qazaxıstanın sərt çöllərinə aparıb çıxarmışdı. Burada atası, dörd qardaşı şəraitə dözməyib həlak olmuş, anası ilə doğma vətənə pənah gətirmişdir. Burada orta məktəbi bitirəndən sonra İkinci Dünya müharibəsi başlandığına görə könüllü cəbhəyə getmiş, 416-cı Taqanroq diviziyasının tərkibində döyüşlərdə düşmənə qarşı vuruşmuş, ağır yaralanıb bir müddət hərbi xəstəxanalarda müalicə edilmişdir. ADU-nun filologiya fakültəsində təhsil almışdır (1954-1959). Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin xarici verlişlər redaksiyasında müxbir kimi başlamışdır. Sonra Azərbaycan Dövlət Nəşriyyatında incəsənət şöbəsinin redaktoru "Gənclik" nəşriyyatında uşaq ədəbiyyatı

redaksiyasının redaktoru, “Maarif və İşıq nəşriyyatında direktor müavini, “yazıçı” nəşriyyatında redaktor işləmişdir (1983-1990). Müharibə və əmək veteranıdır. Bədii yaradıcılığa ilk gənclik dövründən başlamışdır. Ucar rayon qəzetində və cəbhə qəzetlərində ilk şeirləri dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış edir. Əsərləri xarici mətbuatda dərc olunmuşdur. İlk dəfə “I dərəcəli İkinci Dünya müharibəsi” ordeni, iki dəfə “Qırmızı ulduz” ordeni və 18 döyüş medalları ilə təltif olunmuşdur. Prezident təqaüdünə layiq görülmüşdür. Əsərlərindən “Gənc maşinist”,”Şirvan nəğmələri”,”Mənim xallı balıqlarım”, ”Kələk baş tutmadı”, ”İkinci görüş”,”Vəfalı Toplan”, ”Onu bir də gördüm” , “Anam mənə həyan idi”, ”Ay şən bala”, ”Bu gün üçün vuruşduq”, ”Ömrün payızında açılan güllər”, ”Günayın şərgüzəştləri”, ”İtirib kələfin ucunu dünya” və s. kitablarını qələmə almışdır.

**https://drive.google.com/file/d/1mVjv3m8rEYeVbUatAd2ABaJkeH9KWx5/view**

Kitabxanalarda vəsaitdəki kitablardan bəhs edən diskussiya da təşkil etmək olar.